# QƏTI SIFARIŞ

<"xml encoding="UTF-8?>

QƏTI SIFARIŞ

Curəyr ibni Abdullah Bəcəli Əli (əleyhis-salam)-ın yaxşı və şücaətli yoldaşlarından idi ki, hələ əvvəllər Osman tərəfindən hakim təyin edilmişdi. Həzrət Əli (əleyhissalam) öz xilafəti vaxtı onu yerində saxladı və o camaatdan Əli (əleyhissalam) rəhbərliyi üçün beyət aldı. Curəyr bundan əlavə İmam Əli (əleyhis-salam)-a belə bir təklif etdi: “Şam camaatının əksəriyyətinin mənim qəbiləmdən olmalarını nəzərə alaraq məni Şama ezam et ki, onlardan sənin üçün beyət alım.” İmam bu təklifi qəbul edib onu Şama göndərdi. Curəyr Şama daxil olduqdan sonra çıxış etdi və camaatı Əli (əleyhissalam)-ın rəhbərliyini qəbul etməyə dəvət etdi. Amma Müaviyə bu işdən hələ də vaz keçir, vaxt tələf edir və möhlət istəyirdi.

Curəyr hadisəni olduğu kimi (əleyhissalam)-a çatdırdı. İmam Əli (əleyhissalam) Curəyrin cavabında belə yazdı:

“Məktubum sənə çatdıqdan sonra Müaviyəni qəti hökmə təklif et ki, öz rə”yini söyləsin və (əgər gördün baş dolandırır) onu müharibə ilə təslim olmaq arasında azad qoy. Əgər müharibəni seçdi onunla müharibə elan et və əgər təslim oldu ondan beyət al, vəssəlam.”

.Nəhayət Curəyr Müaviyədən məyus olub Kufəyə sarı qayıtdı